# ANADAN OLMASЬNЬN 100 ILLIJI



I. Ql. CAVCAVADZE

*Ilja Cavcavadze*

# VƏTƏN

Səjlə əziz vətənim, yzyndəki qəm nədir?
Gələçəjin işьqlь, kecmişin viranədir.
Bil, sabahki nəslimiz jorulmaz bir qyvvədir.
Sənin səadətini, qydrətini qajtarar...
Necin jazьq vətənim, yzyndə qyssələr var?

***

Sənin kөrpə jenilməz balalarьn qalqьr baq!
Onlarьn istəklisi jalnьz vətən olaçaq.
Dynja durduqça onlar, sənə sadiq qalaçaq.
Gynəş kibi bu jurdda bir gyn şəfəqlər saçar
Necin şanlь vətənim yzyndə qyssələr var?

***

Ijitliklə doludur o dөnməjən yrəklər,
Onlar ƶen sinəsini vətənə tutmuş sypər;
Xəjanətdən, rijadan onlarda joqdur əsər,
Ucub səkyləçəkdir bizə dyşmən qalalar.
Necin əziz vətənim yzyndə qyssələr var?

15 sentjabr 1872.

Cevirəni SƏMƏD VURQUN